*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 10 oktyabr 2015-ci il | № 77 (1993) | Qiyməti 25 qəpik

## Rəsmi xronika

***✓ Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.***

***Dövlətimizin başçısı Vladimir Putinə ad günü münasibətilə təbriklərini çatdırıb, ona ali dövləti fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.***

***Rusiya Federasiyasının Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.***

***Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə dinamik şəkildə uğurla inkişaf etdiyini məmnunluqla qeyd edib, strateji tərəfdaşlıq səviyyəsində əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildiriblər.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü İdarə Heyətinin sədri Kler Şortu qəbul edib.***

***İlk dəfə Azərbaycana 20 il əvvəl səfər etdiyini vurğulayan Kler Şort ötən dövr ərzində ölkəmizdə əldə olunan inkişaf münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. Kler Şort Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünə qoşulan ilk ölkələrdən olduğunu və bu təşəbbüsdə liderlik nümayiş etdirdiyini vurğuladı.***

***Xoş sözlərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev ölkəmizdə bütün sahələrdə böyük uğurlar əldə olunduğunu vurğulayaraq Azərbaycanın Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsündə iştirakının önəmini qeyd etdi. 2006-cı ildən böyük həcmdə neft istehsalına başlanıldığını deyən Prezident İlham Əliyev yüksək neft qiymətlərinin ölkəmizdə iqtisadi inkişafın şaxələndirilməsi üçün baza yaradılmasına, sosial sahədə layihələrin icra edilməsinə, infrastrukturun qurulmasına və abadlıq-quruculuq işlərinin həyata keçirilməsinə yaxşı imkanlar yaratdığını bildirdi.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Beynəlxalq "Fair Play" Komitəsinin prezidenti Jeno Kamyutini, Avropa "Fair Play" Hərəkatının prezidenti Kristian Hinterberqeri və vitse-prezidenti Erdoğan Arıpınarı qəbul edib.***

***Azərbaycanın artıq beynəlxalq idman yarışlarının yüksək səviyyəli təşkilatçısı kimi dünyada öz sözünü dediyini vurğulayan Avropa "Fair Play" Hərəkatının vitse-prezidenti Erdoğan Arıpınar Bakının ev sahibliyi etdiyi birinci Avropa Oyunlarını böyük hadisə kimi qiymətləndirdi.***

***Beynəlxalq "Fair Play" Komitəsinin prezidenti Jeno Kamyuti Azərbaycanda idmanın inkişafı sahəsindəki xidmətlərinə, ədalətli oyunlar hərəkatına verdiyi dəstəyə və idmanda ədalət prinsiplərinə sadiqliyinə görə Prezident İlham Əliyevin Beynəlxalq "Fair Play" Komitəsinin xüsusi medalı ilə təltif olunduğunu dedi və mükafatı dövlətimizin başçısına təqdim etdi.***

***Prezident İlham Əliyev Beynəlxalq "Fair Play" Komitəsinin xüsusi medalına layiq görüldüyünə görə təşəkkürünü bildirdi.***

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın hərbi potensialı münaqişənin həllində tam yetərlidir

Ali Baş Komandan İlham ƏLİYEV:

*Bu gün Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Bizdə olan vətənpərvərlik ruhu, döyüş qabiliyyəti, texniki imkanlar, əlbəttə ki, üstünlüyümüzü şərtləndirir. Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər.*




***<u>Müasir dövrdə dünyada cərəyan edən siyasi-hərbi proseslər ölkəmizin illərdən bəri üzləşdiyi Qarabağ probleminin də tez bir vaxtda öz həllini tapmasını sürətləndirir. Bu gün hərbi qüdrətinə görə hegemon dövlətlərdən sayılan Rusiya uzaq Suriyada baş verən hadisələrə biganə qalmır və təxribatçı qüvvələri zərəzsizləşdirmək üçün raket atəşinə əl atmaqdan çəkinmir. Bu yerdə haqlı bir sual yaranır: bəs nəyə görə Rusiya öz qonşuluğunda baş verən proseslərə biganədir? Axı işğalçı Ermənistan 20 ildən artıqdır ki, Dağlıq Qarabağı və ona bitişik 7 rayonumuzu işğal etməklə Azərbaycanın ərazi bütövlüyünü pozur. Separatçı Dağlıq Qarabağ rejiminin mövcudluğuna göz yuman Rusiya kimi nüfuzlu bir dövlətin rəsmiləri isə heç bir beynəlxalq tədbirdə Ermənistanın işğalçılıq siyasətini dilə gətirmirlər.</u>***

Müstəqil Azərbaycanın rəhbərliyi dəfələrlə mötəbər beynəlxalq qurumlar qarşısında ərazi bütövlüyünün hərbi təcavüzə məruz qaldığını israrla bəyan edir. İnsan hüquqlarından geninə-boluna danışan nüfuzlu dövlətlərin rəsmiləri isə, nədənsə, ölkəmizin haqq səsini eşitmək istəmirlər. Bu cür biganəliyin nəticəsidir ki, Ermənistan illər uzunu işğalçılıq siyasətini davam etdirir. Çox təəccüblüdür, Azərbaycanın tərəfdaş olduğu irimiqyaslı enerji layihələrindən səmərə götürən dövlətlər tərəfindən bizim haqlı mövqeyimiz, nədənsə, yetərincə müdafiə olunmur. Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, bəzi dairələrin münaqişənin həllinə ikili standartlardan yanaşması ikrah doğurmaya bilməz. Belə olan halda beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan öz ərazi bütövlüyünü və beynəlxalq hüquqla təsbit edilən sərhədlərinin toxunulmazlığını təmin etməyə borcludur.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın güclü orduya malik olması üçün öz hərbi potensialını artırmaq zərurətini izah edərkən bunu hər şeydən öncə üzləşdiyimiz hərbi münaqişə ilə bağlayırdı. Qeyd edirdi ki, bizim heç kəsin bir qarış torpağında gözümüz yoxdur və biz heç bir işğalçılıq niyyəti güdmürük, başlıca məqsədimiz yalnız torpaqlarımızı işğaldan azad etməkdir. Ulu öndərini siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev də siyasi hakimiyyətə gəldiyi ilk günlərdən hərbi gücümüzün artırılmasını dövlətin prioritet istiqaməti elan edib və bu məqsədlə düzgün, düşünülmüş islahatlar həyata keçirir. Dövlətimizin başçısı dəfələrlə hərbi potensialımızın güclənməsinə qınaq göstərən dövlətlərin rəsmilərinə öz qətiyyətli mövqeyini bildirərək bəyan edib ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunmayınca, işğalda olan ərazilərimiz son qarışına qədər azad edilməyincə, biz ordumuzu daha da gücləndirəcəyik. Məhz bu məqsədlə Silahlı Qüvvələrimizin maddi-texniki təminatı qat-qat güclənib və Azərbaycan indi müasir silah-texnika arsenalına malikdir.

Yenə də münaqişənin həllində sülh danışıqlarına önəm verdiyini bildirən Azərbaycan rəhbərliyi maraqlıdır ki, beynəlxalq təşkilatlar və nüfuzlu dövlətlər bu sahədə vasitəçilik edərək problemin dinc həllinə nail olsunlar. Axı Azərbaycan dünyəvi, hüquqi və demokratik dövlət olaraq humanist mövqeyini ortaya qoyur. Biz razı deyilik ki, münaqişə yenidən alovlansın və hər iki xalq müharibədə qan töksün. İşğalçı dövlətə güclü təsir edərək onu işğalçılıq niyyətindən birdəfəlik əl çəkməyə və beynəlxalq hüquqa hörmətlə yanaşmağa məcbur etmək mümkündür. Amma səbrimiz tükənməz deyil, bir gün Azərbaycan dövləti münaqişənin həllində son varianta əl atacaqdır. Qoy işğalçı tərəf və onu himayə edənlər də anlasınlar ki, ölkəmizin hərbi potensialı münaqişəni həll etməyə tam yetərlidir.

Onlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər" - sözlərini unutmasınlar.

**"Azərbaycan Ordusu"**

## Azərbaycanın Baş naziri Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşüb

***<u>Oktyabrın 6-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.</u>***

Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələr üzrə yüksək səviyyədə davam etdiyini önə çəkən Baş nazir Artur Rasizadə siyasi, iqtisadi, mədəni, həmçinin, hərbi əməkdaşlıq istiqamətində sıx əlaqələrimizin mövcudluğunu xüsusi vurğulayıb. Qardaş ölkənin hərbçilərindən ibarət nümayəndə heyətinin bu səfərinin də əməkdaşlığımızın dərinləşməsinə xidmət edəcəyinə əmin olduğunu deyən Baş nazir qeyd edib ki, müstəqilliyini bərpa etdikdən sonra türkiyəli mütəxəssislərin də yaxından köməyi ilə bu gün artıq respublikamızda güclü maddi-texniki bazaya və yüksək ixtisaslı zabit korpusuna malik nizami ordu yaranıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan tərəflər bu münaqişənin yalnız beynəlxalq hüquq normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinin mümkünlüyünü bir daha vurğulayıblar.

Səmimi görüşə görə təşəkkürünü bildirən Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akar Türkiyə ilə Azərbaycanın hər zaman beynəlxalq aləmdə bir-birinə dəstək verdiyini məmnunluqla xatırladıb. Son illər qardaş Azərbaycana hərbi-texniki və kadr hazırlığı sahəsində göstərilən yardımlarla yanaşı, keçirilən birgə hərbi təlimlərin də böyük əhəmiyyət daşıdığını qeyd edən türkiyəli qonaq orduda peşəkarlığın artırılmasına xidmət edən belə təlimlərdə çox səmərəli nəticələr əldə olunduğunu bildirib.

Görüşdə regional və beynəlxalq təhlükəsizlik, bölgədə sabitliyin qorunub saxlanması və bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

## Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Milli Məclisdə olub

***<u>Oktyabrın 6-da Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.</u>***

Görüşdə Oqtay Əsədov son vaxtlar Türkiyədə törədilən terror hadisələri nəticəsində həlak olanların yaxınlarına başsağlığı verib, yaralananlara şəfa diləyib.

Milli Məclisin sədri deyib ki, Azərbaycan-Türkiyə münasibətləri ən yüksək səviyyədədir və əlaqələrin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri mühüm rol oynayır.

Oqtay Əsədov bildirib ki, iki ölkə arasında hərbi sahədə əlaqələr də yüksək səviyyədədir. O, son illər həm Azərbaycanda, həm də Türkiyədə keçirilən birgə hərbi təlimlərin əhəmiyyətini qeyd edib.

Milli Məclisin sədri əlaqələrimizin iqtisadi sahədə də çox yüksək səviyyədə olduğunu vurğulayıb. Bildirib ki, 2020-ci ilədək Azərbaycanın Türkiyə iqtisadiyyatına yatıracağı sərmayələrin həcmi 20 milyard dollara çatacaq. Türkiyə şirkətləri də Azərbaycana milyardlarla dollar həcmində sərmayə qoyublar.

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akar ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığı yüksək qiymətləndirib, həyata keçirilən birgə təlimlərin önəmli olduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Şəmkir hərbi birliyində olub



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hulusi Akar hərbi birlikdə olublar.***

Fəxri qonağın təntənəli qarşılanma mərasimi zamanı orkestr Türkiyənin istiqlal marşını və Azərbaycan Respublikasının Dövlət himnini ifa edib.

Sonra Şəmkir birliyindəki hərbi hissənin ərazisində ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Türkiyəli general qərargahda Heydər Əliyev guşəsi ilə tanış olub, şərəf kitabını imzalayıb. Qonağa birliyin yaradılması tarixi, fəaliyyəti, tərkibi, hərbi hissənin döyüş hazırlığı, təminatı, şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti, sosial-məişət şəraiti və son dövrlərdə görülən işlər barədə məlumat verilib.




Hərbi hissənin ərazisini gəzən qonaq əsgər yataqxanalarında, tibb mərkəzində, yeməkxanada, hamam-camaşırxana kompleksində də olub və burada şəxsi heyət üçün yaradılan şəraitdən məmnun qalıb.

Sonda nümayəndə heyəti səfər proqramının mədəni-kütləvi hissəsinə uyğun olaraq Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzini, dahi Nizaminin məqbərəsini, Nuru Paşanın bayrağı tapılan evi və Türkiyənin Baş Konsulluğunu ziyarət edib.

Nümayəndə heyətinin Azərbaycana səfəri başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Cəbhə bölgəsindən reportaj*

# Mübarizlərin sayı artmaqdadır

***Son günlər cəbhədə atəş səsləri səngimək bilmir. Düşmən atəşkəsə məhəl qoymadan istədiyi vaxt təxribatlar təşkil edir, ya postlarımızı güllələyir, ya da cəbhəyanı kəndlərə, təsərrüfat işləri ilə məşğul olan dinc vətəndaşlarımıza atəş açırlar. Belə olduğu halda döyüşçülərimiz düşmənə cavab atəşi açmaq məcburiyyətində qalır və qarşı tərəfi daha böyük itkilərə düçar edir. Tez-tez cəbhə bölgəsinə səfərlər edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov düşmənlə təmas xəttində xidmət edən hərbi qulluqçulara tapşırıq verib ki, düşmən bizə xətər yetirdiyi halda, biz onu ən azı ikiqat itkiyə məruz qoymalıyıq. Ön xətdə xidmət edən əsgər və zabitlərimizin əhval-ruhiyyəsi ilə yaxından tanış olmaq üçün cəbhə bölgəsinə ezam olunduq. Burada ilk olaraq görüşüb söhbət etdiyim polkovnik-leytenant Elşən Əliquliyev bildirdi ki, düşmən hər gün müxtəlif istiqamətlərdən iriçaplı silahlardan mövqelərimizə və ətraf kəndlərimizə atəş açsa da, igid döyüşçülərimizin layiqli cavab atəşi ilə susdurulur.***

Son döyüşlərdə fərqlənən və komandanlıq tərəfindən mükafatlandırılan döyüşçülərlə görüşümüzün mümkün olacağını bildirən zabit onların xidmət yerinə gedəcəyimizi dedi. Zabit Rauf Niyazovla döyüşçülərin xidmət yerinə yola düşdük. Gedəcəyimiz məkan bəlli idi. Hərbi xidmətimin ilk illəri keçən bu yerlər mənə doğma görünürdü. Hər cığırında, daşında əl izim vardı. Zamanında bu yerlərdə gedən qanlı döyüşlərdə Vətən oğulları arasında mən də vardım.

Xalqımız döyüşən xalqdı. İgid oğullarımız düşmən qarşısında heç zaman aciz qalmayıblar, döyüş meydanında son damla qanlarına qədər vuruşublar. İndi burada baş verənləri dinlədikcə on illər bundan əvvəlki döyüşləri xatırlayıram. O dövrdən fərqli olaraq indi qoşunlarda pərakəndəlik yoxdur, ordu vahid komandanlıq tərəfindən idarə olunur. Heç kim özbaşına hərəkət etmir. Nəticə etibarilə bu da cəbhədə Silahlı Qüvvələrimizin döyüş üstünlüyünün əldə edilməsinə gətirib çıxarır.

Budur, yeni nəslin bir döyüşçüsü ilə tanış oluram: Baş leytenant Elmar Allahverdiyev. O, tabeliyində olan əsgərlərlə alaçıqda oturub fikirlərini bölüşürdü. Hündür, idmançı görkəmli zabit özünü hərbi qaydada təqdim edib iş otağına keçməyimizi təklif elədi. Kiçik əsgər yataqxanasının dəhlizindən keçib bir otağa daxil oluruq. Masanın üstü kitab və dəftərlərlə örtülüb. Öncə onları səliqə ilə yığıb divardakı rəfə qoydu. Elektrik çaydanını cərəyana qoşub dedi: - Elimizin gözəl adətlərindən biri də qonağı çay ilə qarşılamaqdı.

Masanın sol divarını bəzəyən fəxri fərmanlar gözümdən yayınmadı. General-mayor Hikmət Həsənov tərəfindən verilən fəxri fərmanda deyilir: "Baş leytenant Allahverdiyev Elmar Saleh oğlu döyüş tapşırığının yerinə yetirilməsində göstərdiyi cəsurluğa və fədakarlığa görə təltif olunur". Digər fəxri fərmanlar da döyüş və ictimai-siyasi hazırlıq sahəsində əldə etdiyi nailiyyətlərə görə hərbi hissə komandiri tərəfindən verilib.

Tanışlıq üçün ilk olaraq Elmar özü haqda bunları dedi:

- Şəki rayonunun Cəfərabad kəndində dünyaya gəlmişəm. 2002-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyə daxil olmuşam. Liseydə oxuduğum müddətdə kurs əlaçısı idim və buranı qırmızı attestatla bitirdim. 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldum. Motoatıcı ixtisası üzrə təhsil aldım və oxuduğum illərdə fiziki hazırlığa daha çox diqqət ayırdım. Dəfələrlə Silahlı Qüvvələr üzrə keçirilən boks yarışlarında iştirak etmişəm və rinqdən qalib olaraq ayrılmışam. Məndən bir neçə kurs yuxarı oxuyan, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeninə layiq görülən şəhid zabitimiz Fərid Əhmədovla çoxlu məşqlərim olub. O zaman yarışlara bir yerdə hazırlaşırdıq. Təlim və Tədris Mərkəzində ixtisasartırma kursu keçən zaman Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov da gizir hazırlığı kursunda oxuyurdu. Məktəbin idman zalında tez-tez onunla da məşqlərimiz olurdu. Hər iki cəsur döyüşçü mənim həyat idealımdı. Çox şadam ki, onları sağ ikən tanımışam və necə vətənpərvər olduqlarını indi də yaxşı xatırlayıram.



Baş leytenant Elmar Allahverdiyev ali hərbi təhsilini motoatıcı ixtisası üzrə bitirdikdən sonra xidmətə motoatıcı taqım komandiri kimi başlayıb. 2011-ci ildə Silahlı Qüvvələrin boks birinciliyi keçiriləndə öz çəki dərəcəsində qalib olub. Birinciliyin medalı vaxtilə komandiri olmuş Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərov tərəfindən ona təqdim ediləndə, Elmar ixtisasının dəyişdirilməsini xahiş edib. Qısa müddətdən sonra kəşfiyyat taqımının komandiri vəzifəsinə təyin edilib. Hazırda cəbhə bölgəsində yuxarı vəzifədə xidmət etməyin məsuliyyətini düşünür və ona göstərilən etimadı can-başla doğruldacağını bildirir.

Elmar deyir ki, onların xidmət yeri düşmənin ən çox atəşə məruz qoyduğu ərazilərdi. Düşmənə ağır zərbələr endirmək, onların əsas atəş vasitələrini məhv etmək üçün tədbirlər həyata keçirilir. Həmsöhbətim deyir ki, ermənilərin bir neçə aldadıcı, yalançı atəş mövqeləri də var: "Biz bunları yaxşı bilirik. Qarşımızda düşmən hər dəfə özünü daha güclü göstərmək istəyir. Ancaq sayıqlığımız və dəqiqliyimiz nəticəsində ermənilər daha ciddi zərbələr alır. Bundan sonra da alacaqlar".

Bu yaxınlarda həmin mövqelərdən birində düşmən üç nəfər itki verib. Məlumatı ermənilərin rəsmi mənbələri də təsdiqləyib. Həmin döyüşdə baş leytenant Elmar Allahverdiyev, leytenant Coşqun Nəbiyev və baş çavuş Elnur Fərziyev fərqləniblər. Leytenant Coşqun Nəbiyev Füzuli rayonunun ermənilərin işğalı altında olan Aşağı Seyidəhmədli kəndindəndir. Zabit kimi hərbi xidmətə başladığı cəmi bir neçə aydır. Buna baxmayaraq üzərinə düşən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirir. Baş çavuş Elnur Fərzəliyevi görə bilməsək də, Elmar onun haqqında dolğun məlumat verdi. Dedi ki, Elnurgil ailədə beş qardaşdılar, beşi də hərbi xidmətdə kəşfiyyatçı olub. Atası Qəzənfər də Qarabağ müharibəsi iştirakçısıdır və zamanında o da kəşfiyyatçı olub. Bu cür vətənpərvər, dəyərli oğullarımız ki var, torpaqlarımız erməni tapdağı altında çox qala bilməz.

Baş leytenant daha sonra döyüşlərdə fəallıq göstərərək yaralanan manqa komandiri çavuş Dəyanət Zahidov haqda danışdı:

- Dəyanət səkkiz il sıralarımızda şərəflə xidmət etdi. O, sonuncu döyüşlərdə düşmənə aman vermədi. Tutduğu mövqedən bir addım belə geri çəkilmədi. Dəqiq zərbələr endirirdi. Onun döyüşkənliyi digər silahdaşları üçün də nümunə oldu. Sonda erməninin gülləsi onun silah tutan əlini yaraladı. Ancaq yenə də döyüş meydanını tərk etmək istəmirdi. Belə cəsur oğullarımızın döyüş nümunələrini əsgərlərimizə təbliğ edirik.

Baş leytenat Elmar Allahverdiyevin döyüş epizodlarını dinləməkdən yorulmurdum. Belə bacarıqlı, cəsarətli və yetərincə hərbi biliyə malik olan zabitlə tanış olduğum üçün qürurlanırdım. Nə yaxşı ki, Mübarizin, Fəridin əvəzinə neçə-neçə mübarizlər, fəridlər yetişməkdədir. Düşmən unutmasın ki, belə qəhrəmanlarımızın sayı durmadan artacaq.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 9-da Qazax rayonunun Kəmərli kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi keçirən qruplar qatı duman səbəbindən vizual əlaqə yarada bilməyib və yalnız radiorabitə əlaqəsindən sonra monitorinq baş tutmuş hesab olunub.

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Sonra ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov və Piter Svedberq Ermənistan silahlı qüvvələri tərəfindən intensiv atəşə məruz qalan Kəmərli kəndindəki ziyan dəymiş evlərə baxış keçirib və yerli sakinlərlə görüşüblər.

Beynəlxalq təşkilatın nümayəndələri sentyabrın 23-də gecə saatlarında Ermənistan Respublikasının Noyemberyan rayonunun Dovex kəndi istiqamətindən iriçaplı silahlardan Azərbaycan Respublikasının Qazax rayonunun Kəmərli kəndinin atəşə tutulması nəticəsində yaralanmış Esmira Dursunova ilə görüşüb və onun səhhəti ilə də maraqlanıblar.

## Azərbaycan güləşçiləri hərbçilərin VI Dünya Oyunlarında növbəti medal qazanıblar

Koreya Respublikasının Munqyeonq şəhərində hərbçilərin VI Dünya Oyunları keçirilir. Yarışda Azərbaycanın idman şərəfini Mərkəzi Ordu İdman Klubunun sərbəst və yunan-Roma güləşi üzrə komandası təmsil edir.

Sərbəst güləş yarışlarının ikinci günündə 61, 70, 86 və 125 kq çəki dərəcələrində güləşçilər mübarizə aparıblar. İdmançılarımız günü bir gümüş medalla başa vurublar. Yarışda 70 kq çəki dərəcəsində mübarizə aparan Coşqun Əzimov finala qədər inamla mübarizə aparıb. Ardıcıl olaraq Livandan Kamal əl-Katibi (13:1), Ukraynadan Yevgeni Xavilovu (10:2), yarımfinalda isə Monqolustan təmsilçisi Ganzoriç Mandaxnaranı (6:3) yarışlardan kənarlaşdıran Coşqun Əzimov, həlledici görüşdə Rusiya idmançısı Soslan Romanova uduzaraq gümüş medalla kifayətlənməli olublar.

Yunan-Roma güləşçilərimiz isə oktyabrın 9-u və 10-da mübarizəyə qoşulacaqlar. Yarışlarda Azərbaycanı Ramiz Məmmədov (59 kq), Samran Nəsibov (71 kq), Cavid İbrahimli (75 kq), Rafiq Hüseynov (80 kq), Soltan İsmayılov (85 kq) və Türmən Eyyubov (98 kq) təmsil edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***8 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 73 dəfə pozub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Sarıcalı, Mərzili, Kəngərli, Şıxlar, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Aşağı Əbdürrəhmanlı, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 84 dəfə atəş zərbəsi endirib.

***9 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 57 dəfə pozub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Seysulan, Göyarx, Ağdam rayonunun Sarıcalı, Kəngərli, Şıxlar, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Qorqan, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin, Göygöl, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 57 dəfə atəş zərbəsi endirib.

# Elmar Brok: Avropa Parlamentində Azərbaycanla bağlı qətnamənin qəbulu zamanı prosedur qaydaların pozuntusuna yol verilib

Avropa Parlamentinin xarici əlaqələr komitəsinin sədri Elmar Brok bu qurumda Azərbaycanla bağlı qətnamə qəbul edilən zaman prosedur qaydaların pozuntusuna yol verildiyini deyib. O bildirib ki, bu məsələ komitələr çərçivəsində müzakirə olunmalı, daha sonra səsverməyə çıxarılmalı idi.

AZƏRTAC xəbər verir ki, Elmar Brokun bu fikirləri Avropa ölkələrində geniş oxucu auditoriyasına malik "EurActiv" xəbər portalında yayılan məqalədə əksini tapıb. Komitə sədri bildirib ki, Avropa Parlamentində qəbul edilmiş qətnamə rəsmi Bakının Avropa ilə bağlı iri enerji layihələrinin həyata keçirilməsində marağını azalda bilər. Məqalədə E.Brokun Avropa Parlamentində çıxışı zamanı səsləndirdiyi "əks təqdirdə Azərbaycanı itirə bilərsiniz" fikri oxucuların diqqətinə çatdırılır.

Müəllif, həmçinin, Azərbaycanın Avropa İttifaqının qaz təchizatının şaxələndirilməsində mühüm rol oynadığını vurğulayır, "Cənub" qaz dəhlizi və onun tərkib hissəsi olan TAP layihəsinin əhəmiyyəti barədə məlumat verir.

# Avstraliyalı siyasi şərhçi: Ermənistan beynəlxalq hüquq normalarına hörmət etməlidir

***ABŞ-da çıxan "The Daily Caller" qəzetində Yaxın Şərq, Avrasiya və postsovet respublikalarındakı hadisələrdə ixtisaslaşan avstraliyalı siyasi şərhçi Castin Emlerin "İki ölkə haqqında povest" sərlövhəli məqaləsi dərc olunub. Müəllif məqalədə Cənubi Qafqazdakı vəziyyəti, Ermənistan-Azərbaycan münaqişəsini və Azərbaycanın Dağlıq Qarabağ regionunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalını nəzərdən keçirir.***

C.Emler yazır ki, Azərbaycanın Dağlıq Qarabağ regionunun Ermənistan tərəfindən işğalının 20 ildən çox davam etməsinə baxmayaraq, BMT, Avropa İttifaqı və digər beynəlxalq qurumlar bu ərazini Azərbaycanın tərkib hissəsi kimi tanıyırlar. Hüquqi nöqteyi-nəzərdən, o cümlədən Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarı da daxil olmaqla, bu region Azərbaycanın tərkib hissəsi qəbul edilib və buna müvafiq olaraq, Ermənistan işğalçı sayılır.

Azərbaycanın dünyada ikinci ən iri neft kəmərinə (Bakı-Tbilisi-Ceyhan) sahib olması Dağlıq Qarabağ münaqişəsi məsələsində əlavə amil sayılır. Bu kəmər Qərbi alternativ neft təchizatı, o cümlədən İsrailin neft idxalının 40 faizini təmin edir. Ekspert bildirir ki, hazırda Azərbaycan Qərb bazarlarını təbii qazla təmin etmək üçün tərəfdaşları, o cümlədən bp ilə birlikdə qaz kəmərləri inşa edir. Münaqişə səbəbindən bu boru kəmərləri Ermənistan ərazisindən keçmir. Halbuki Ermənistanın iqtisadi stimullaşdırmaya indiyə qədər görünməmiş dərəcədə ehtiyacı var. C.Emler vurğulayır ki, Azərbaycan və onun tərəfdaşları Avropanın enerji təhlükəsizliyinin təmin olunmasının möhkəm qarantıdır. Amma Ermənistan Azərbaycandan fərqlənir. Müstəqilliyi bərpa olunandan sonra Ermənistan vassal dövlətə çevrilib. Bu dövlət ölkənin xarici siyasət kursunu idarə etmək iqtidarında deyil.

Sonda ekspert Ermənistanın beynəlxalq hüquq normalarına hörmət etməsi üçün Birləşmiş Ştatlara və Minsk qrupunun digər üzvlərinə müraciət edərək, onları maliyyə və siyasi təsir vasitəsilə bu ölkəyə təzyiq göstərməyə çağırır.

**AZƏRTAC**

Tibb xidməti

# "Hər kəs öz sağlamlığı üçün məsuliyyət daşıyır"

Ali Baş Komandan İlham ƏLİYEV:

*Dünyanın aparıcı klinikalarında olan şərait və texniki təchizat burada var. Şadam ki, burada çalışan mütəxəssislər böyük peşəkarlığa malikdirlər, xarici ölkələrin klinikalarında təlim keçmişlər və əksəriyyəti gənc mütəxəssislərdir.*






*Hərbi təbabətimizdə ilk uğurlu açıq ürək əməliyyatından 2 il keçir. Həmin vaxt bu hadisə Azərbaycanın hərbi səhiyyə tarixində əsl sensasiya kimi qarşılanmışdı. 2013-cü ilin oktyabrında "N" hərbi hissəsinin zabiti kapitan Cabir Vəliyev ağır ürək tutması diaqnozu ilə Baş Klinik Hospitalın Ürək-Damar Mərkəzinə qəbul edilir. Tanınmış ürək cərrahı tibb xidməti polkovnik-leytenantı Anar Əmrahın rəhbərliyi ilə bacarıqlı tibb heyəti bu çətin və mürəkkəb əməliyyatı uğurla həyata keçirərək, yuxarıda qeyd etdiyim kimi, ölkəmizin hərbi təbabətində görünməmiş uğura imza atır. Müasir tibbi avadanlıqlarla təmin edilən Ürək-Damar Mərkəzinin kollektivi bunun ardınca çoxsaylı uğurlar qazanır. Artıq bu tibb heyətinin sorağı bütün ölkəmizi dolaşır, nəinki hərbi qulluqçular, habelə mülki adamlar, hətta xarici ölkələrin vətəndaşları da böyük ümidlə buraya üz tuturlar. Həmin vaxt bir yazı ilə Anar Əmrahı və onun rəhbərlik etdiyi kollektivi qəzetimizin oxucularına tanıtmışdıq. Maraqlıdır, bu zaman məsafəsi Anar həkimin bir vaxt söhbətimizdə qeyd etdiyi kimi, 24 saat fasiləsiz fəaliyyətdə olan ürək komandası üçün daha hansı yeniliklərlə, uğurlarla yadda qalıb? Elə bu suala cavab tapmaq həvəsi ilə Baş Klinik Hospitalın Ürək-Damar Mərkəzinə üz tutduq. Yenə də ilk həmsöhbətim peşəkar ürək cərrahı kimi nəinki ölkəmizin, qardaş Türkiyənin və başqa dövlətlərin tibb aləmində də yaxşı tanınan kardiocərrah tibb xidməti polkovnik-leytenantı Anar Əmrahdır.*

Tələbəlik illərimdə bir qocaman müəllim haqqında yazı hazırlayanda o, yaşadığı ömrün mənasını izah edərkən belə bir söz demişdi: "Xoşbəxtəm ki, mənim adım həyatda layiqli yerini tapan neçə insanın xatirəsindədir". İndi Anar həkimi də yer üzünün xoşbəxt adamlarından hesab edirəm, çünki şəfalı əllərinin sehri ilə sağlamlıq bəxş etdiyi neçə xəstənin yaddaşında özünə yer tapıb. Onunla söhbətləşdiyim dəqiqələrdə diqqətimi masanın yan tərəfindəki bir hədiyyənin üzərinə qızılı rənglə həkk edilən yazı cəlb edir: "Anar Əmrah - dünyanın ən yaxşı həkimi". Bu yaxınlarda əməliyyatdan çıxan bir xəstənin sözləridir. Baxın, nə qədər insanın xatirəsində Anar həkimin beləcə öz yeri, öz hörməti vardır.

Anar həkimi mənə sevdirən özəl xüsusiyyətlərindən biri də olduqca sadə və təvazökar olmasıdır. Hərbi təbabətimizdə qısa vaxtda yüzlərlə uğurlu əməliyyata, bir sıra tibbi yeniliklərə imza atan həkim heç vaxt özü haqqında danışmağı xoşlamır. Ancaq dövlətimizin və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən hərbi səhiyyənin inkişafına göstərilən diqqət və qayğıdan razılıq edir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin bu mərkəzi ziyarət etməsi, şəxsən onunla görüşməsi Anar həkimin yaddaşında qalan ən xoş xatirələrdir. Tibb xidməti zabiti qeyd edir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılığı ilə ordunun rəhbər nümayəndələrinin hər bayramda xəstələri ziyarət etməsi də olduqca təqdirəlayiq hadisədir. Artıq bu gün hərbi təbabətimiz ordu rəhbərliyinin yüksək qayğısı ilə əhatə olunub. Yeri gəlmişkən bir faktı da qeyd etmək istərdim: bu il çalışqanlığına və fədakarlığına önəm verilən tibb xidməti zabiti "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunub və ona növbədənkənar "polkovnik-leytenant" hərbi rütbəsi verilib. Bunlar ordu rəhbərliyi tərəfindən cəfakeş həkimin əməyinə verilən dəyərlərdir.

Son iki il müddətində Ürək-Damar Mərkəzində 1000-ə yaxın əməliyyat keçirilib ki, bunun 600-ü damar, 400-ü isə açıq ürək əməliyyatıdır. Əməliyyat edilmiş xəstələrin ən kiçiyi 11 aylıq körpə, ən yaşlısının isə 83 yaşı olub. Və sevindirici haldır ki, keçirilən əməliyyatlar uğurla yekunlaşıb. Eyni zamanda mərkəzdə 1200-ə yaxın anjio müdaxilə əməliyyatı həyata keçirilib. Yeri gəlmişkən, bir faktı xüsusi vurğulamaq istərdim ki, Anar həkim dünyada analoqu olmayan tibbi nailiyyətə imza atıb.



### Dünyada tibbi yenilik

- Qürurla deyə bilərəm ki, ürək damarlarında EKOS tətbiqi adlı əməliyyat dünyada ilk dəfə olaraq azərbaycanlı hərbi həkimlər tərəfindən həyata keçirilib, - deyə təcrübəli cərrah bildirir. - Kəskin miokard infarktı ilə 15 noyabr 2014-cü il tarixdə bizə müraciət etmiş 51 yaşlı Qurbanov Şahin Əziz oğlunda anjioqrafiya nəticəsində ektazik - yəni genişlənmiş tac ana damarın trombla tamamilə tutulması aşkar edilmişdi. Xəstəyə ənənəvi metodlarla balon müdaxiləsi və trombolitik dərmanların tətbiqi müsbət nəticə əldə vermədi. Böyük damarlardakı trombu əritmək üçün tətbiq edilən kataterlə gücləndirilmiş ultrasəs dalğaları ilə trombolizisi dünyada ilk dəfə olaraq tac arteriyasına tətbiq etdik və uğurlu nəticə alındı. 12 saatlıq müalicədən sonra damarlara təkrar anjioqrafiya ilə baxıldı və tromb ilə tutulmuş damarın tamamilə açılması müşahidə edildi. Klinik olaraq xəstədə yaxşılaşma müşahidə olunduqdan sonra evlərinə göndərildi.

Əlbəttə, sevindirici uğurdur, həkimin dediklərini dinlədikcə fərəhdən adamın qəlbi dağa dönür. Axı belə bir uğura ilk dəfə Azərbaycanda, özü də Silahlı Qüvvələrimizin həkimləri tərəfindən imza atılıb. Afərin olsun!

Anar həkim yenə də söhbətinə davam edir, qazandıqları uğurlardan fərəhlə söz açır. Öyrənirəm ki, digər bir xəstə 59 yaşında, ağciyər arteriyasının yarımkəskin massiv trombozu ilə bu mərkəzə qəbul edilib və Azərbaycanda ilk dəfə olaraq xəstənin ağciyər arteriyasına ultrasəs dalğaları ilə trombolizis metodu tətbiq edilib. Nəticədə xəstənin tənəffüs funksiyası tam bərpa olunub və evə göndərilib. Həkimin açıqlamasına görə, əvvəlcə ağ ciyərə tromb atılan xəstəyə ümidsiz baxılırdı, hazırda isə Baş Klinik Hospitalda uğurla müalicə olunur.

### Azərbaycan təbabətində nadir hadisə

Bir başqa xəstəyə döş qəfəsi açılmadan aort qapaq yerləşdirilməsi (TAVİ) üsulu da ölkəmizdə ilk dəfə olaraq Baş Klinik Hospitalın Ürək-Damar Mərkəzində həyata keçirilib. Ciddi aort qapaq darlığı diaqnozu ilə qəbul edilən 73 yaşlı xəstəyə bud arteriyasından daxil olunaraq anesteziya verilmədən kateter ilə döş qəfəsi açılmadan aort qapağın yerləşdirilməsi uğurla baş tutub. Əməliyyatdan sonra xəstə kafi vəziyyətdə evə yazılıb.

Bundan əlavə qeyd etmək yerinə düşər ki, daha bir tibbi nailiyyət - kök hüceyrə nəqli də tibb xidməti polkovnik-leytenantı Anar Əmrahın rəhbərliyi altında Azərbaycanda ilk dəfə məhz hərbi təbabətimizin tarixində qeydə alınıb. Xroniki ürək çatışmazlığından əziyyət çəkən bir xəstəyə qarın nahiyəsindən kök hüceyrəsi alınaraq koronar arteriyalara selektiv olaraq yeridilib. Hazırda xəstənin vəziyyəti yaxşıdır. Eyni zamanda ayağında ağır işemiyası olan bir başqa xəstəyə də ayaq damarlarına kök hüceyrə nəql edilərək ona sağlamlıq bəxş olunub.

Ürək cərrahiyyəsi üzrə tibb ictimaiyyəti Anar Əmrahı həm də bir çox elmi əsərlərin müəllifi kimi tanıyır. Qısa vaxtda ABŞ, İngiltərə, Fransa, İtaliya, Almaniya, Türkiyə kimi nüfuzlu dövlətlərdə müxtəlif elmi araşdırmalara həsr olunan beynəlxalq konfranslarda, simpoziumlarda iştirak edib və dəyərli elmi məruzələri ilə doğma Vətənimizi layiqincə təmsil edib. Sevindirici faktdır ki, Anar həkimin təşəbbüsü ilə Ürək-Damar Mərkəzində rezidentura fəaliyyətə başlayıb ki, burada da Hərbi tibb fakültəsinin məzunları nəzəri və praktik vərdişlərə dərindən yiyələnmək imkanı qazanırlar. Hazırda gənc tibb zabitlərindən olan Firdovsi Hüseynov, Cavid İbrahimov və Rafiq Xəlilov Anar həkimin rəhbərliyi ilə ürək cərrahiyyəsinin sirlərinə həvəslə alışırlar. Vətənpərvər həkim layiqli yetirmələrini görüncə daha da ruhlanır və düşünür ki, həyatda onun dəyərli davamçıları yetişir.

Deyirlər ki, həkimlər üçün əsl mükafat şəfa bəxş etdikləri xəstələrin sevincdən yaranan göz yaşlarıdır. Sözün həqiqi mənasında, Anar həkim bacarıqlı tibb işçisi olaraq xoşbəxtdir, çünki neçə-neçə insana yaşamaq ümidi bəxş edib. Ürək-damar mərkəzində olduğum vaxt fürsət tapıb xəstələrlə görüşürəm, ürək sözlərini qələmə alıram. Polkovnik-leytenantlar Faiq Musayev, Seyfulla Abbasov, Naxçıvanda xidmət etdiyini bildirən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Seymur Rzayev, ön xətdə Vətən borcunu yerinə yetirən əsgər Samir Əlizadə və başqaları bizimlə söhbətlərində qayğıkeş ürək həkimlərindən, orta və kiçik tibb heyətinin nümayəndələrindən dönə-dönə razılıq edirlər. Xahişləri budur ki, onların ən xoş ürək sözlərini qəzetimizdə dərc edək.

"Hər kəs öz sağlamlığı üçün məsuliyyət daşıyır", - deyən təcrübəli ürək həkimi oxucularımızla öz arzularını bölüşür: "Hərbçilərimizə arzu edərdim ki, insan orqanizminə ən çox zərər verən bir vərdişdən - siqaret çəkməkdən uzaq dursunlar. Siqaretə aludə olan şəxs yaxşı olar ki, həyatında ən əlamətdar bir gün seçsin və özündə qətiyyət taparaq siqaretə əlvida desin".

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Dövlətçilik naminə çağırış

***Ermənistanın Azərbaycandan əsassız ərazi iddiası müharibəyə səbəb oldu. 24 ildi davam edir...***

Bizim tarixi torpaqlarımız üzərində qurulan Ermənistan Azərbaycandan işğal etdiyi ərazilərdə ikinci erməni dövləti yaratmaq niyyətindədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev buna qəti şəkildə imkan verilməyəcəyini dəfələrlə bildirib. "...biz öz torpaqlarımızı heç kimə verməyəcəyik və heç vaxt bu vəziyyətlə barışmayacağıq" fikri düşmənin özünün də, onun işğalçılıq siyasətini gizlin-aşkar dəstəkləyənlərin də, bu siyasətə uyanların da təbliğatının səmərəsiz olacağına edilən ciddi xəbərdarlıqdı.

Ermənistan silahlı birləşmələri hər dəfə ciddi itkilər versə də, illərdir atəşkəsi pozur; Azərbaycan Ordusunun döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsini bildiyindən irimiqyaslı əməliyyatlar aparmağa deyil, atəşkəsi pozmağa cəsarət edir. İstəyinə nail ola bilməyəcəyini anlasa da nəyə ümidlidi? Sülh danışıqlarının başa çatmadığınamı? Beynəlxalq ictimaiyyətin diqqətini reallıqdan yayındırmağamı, havadarlarının rəsmi, qeyri-rəsmi yardımınamı? Belə dolaşıq vəziyyətə düşən dövlətin yalandan, şərdən, böhtandan qaynaqlanan informasiyalarını mövcud vəziyyəti tamam başqa şəkildə, başqa səviyyədə yaymağa meylini duymaq çətin deyil. Duymaq istəyənlər duyur, məntiqi düşüncəsi korşalanlar yox. Ermənistanın təbliğat şəbəkəsi də fəaliyyətini məhz bu qəbil qurumların (adamların) düşüncəsinə münasib qurur. Bəzən belə informasiyalara inananlar da olur. Bizim informasiya vasitələrinin onların sırasında olmasını arzulamazdıq.



Müharibə başa çatmayıb. Müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq. Bu səbəbdən hamı eyni ovqatı yaşayır. Bu, müharibə ovqatıdı. Müharibə ovqatı hamını bir istək ətrafında mənəvi borc kimi, vətəndaşlıq borcu olaraq birləşdirir: torpaqlarımız işğaldan azad edilməlidir. İstək azdı, hamı bu istəyin cəfakeşi olmalıdı. Müəllim də, fəhlə də, həkim də, jurnalist də. Jurnalistlər daha həssaslıqla, daha heysiyyətlə.

Müharibə şəraitində irili-xırdalı bu və ya digər informasiyanın mühüm əhəmiyyətə malik olduğu təkzibedilməzdir. İnformasiyaları jurnalistlər (KİV-lər) ictimailəşdirir. Bu və ya digər informasiyanı ictimailəşdirmək (yaymaq) baxımından saytlar qəzetlərə nisbətən daha çevikdir. Hansısa saytda yerləşdirilən informasiyanın mahiyyətini dərk etmədən, müharibə şəraitini nəzərə almadan, dövlətçiliyimizə nə səviyyədə səmərəli olduğunun fərqinə varmadan paylaşan, ictimailəşdirən (yayan) saytın rəhbəri, informasiyanın müəllifi birmənalı şəkildə milli-xəlqi ruhun daşıyıcısı deyil. Düşmən təbliğatının başlıca məqsədlərindən biri də qarşı tərəfdə fikir ayrılığı yaratmaq, bu və ya digər yalan informasiyanı ictimailəşdirmək, ruh düşkünlüyü, inamsızlıq və s. yaratmaqdır. Müharibə şəraitini şərtləndirən amillərdən biri də qarşı tərəfin informasiya müharibəsidir. Düşmənin yalan informasiyalarına uymaq, inanmaq, uyub-inanıb onu yaymaq düşmənin təbliğat aparatının bir şəbəkəsinə çevrilməkdir. Məhz bu baxımdan Müdafiə Nazirliyi bəzi yerli kütləvi informasiya vasitələrini erməni tərəfinin xüsusi təbliğat fəaliyyətində iştirak etməkdən çəkinməyə çağırır. Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin verdiyi müfəssəl, dəqiq informasiyalara deyil, düşmənin yalan, qərəzli informasiyalarına inanmaq, çağırışda qeyd edildiyi kimi, "mənəvi-psixoloji cəhətdən düşkün vəziyyətdə olan" düşmənin təbliğatına uymaq, onların şərinə, böhtanına şərik olmaq deməkdir.

Bu çağırışın bəzi yerli kütləvi informasiya vasitələrini erməni tərəfinin xüsusi təbliğat vasitələrində iştirakından çəkindirəcəyinə inanırıq. Ən azından milli-xəlqi heysiyyətə görə...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Pentaqon: zəif əfqan ordusu "Taliban" döyüşçülərinin qarşısını ala bilmir



ABŞ-ın Əfqanıstandakı qoşunlarının komandanı general Con Kempbell əfqan ordusunun döyüş qabiliyyətlərinə pessimist qiymət verib. Pentaqon nümayəndəsinin sözlərinə görə, Əfqanıstan ordusu "Taliban" hərəkatı ilə mübarizə aparmaq üçün yetərincə təlim görməyib və pis silahlanıb.

Kempbell, həmçinin, ABŞ Prezidenti Barak Obamanı Amerika kontingentinin Əfqanıstandan çıxarılması məsələsinə yenidən baxmağa çağırıb.

Qəbul edilmiş strategiyaya görə, 2016-cı ilin sonunadək Əfqanıstandakı ABŞ hərbçilərinin sayı 10 min nəfərdən 1000 nəfərə qədər azaldılmalıdır.

ABŞ-ın Müdafiə naziri Eş Karter Əfqanıstanın Qunduz şəhərindəki hospitala endirilən hava zərbəsinə görə üzr istəyib. C.Kempbell bir qədər əvvəl bu zərbəni "Taliban" tərəfindən yaranmış təhlükəni aradan qaldırmağın vacibliyi ilə izah edib və nəticədə dinc sakinlərin zərər çəkməsinə görə məyusluğunu bildirib.

### Humanitar təşkilatların əməkdaşları Qunduz şəhərini tərk edib



BMT-nin humanitar məsələlərin koordinasiyası üzrə idarəsinin sədri Yens Lerke "Sərhədsiz həkimlər" təşkilatının hospitalına endirilən aviasiya zərbəsindən sonra bütün humanitar təşkilatların əməkdaşlarının Əfqanıstanın Qunduz şəhərindən çıxarıldığını bildirib.

Y.Larke hazırda şəhərdə keyfiyyətli tibbi yardımın göstərilmədiyini, suyun və elektrikin kəsildiyini və bazarların çoxunun işləmədiyini qeyd edib. Onun sözlərinə görə, yerli əhali ilk növbədə ərzaq, su, müvəqqəti sığınacaq və təcili tibbi yardıma ehtiyac duyur.

Xatırladaq ki, "Sərhədsiz həkimlər" təşkilatının Qunduz şəhərindəki hospitalı ötən şənbə günü ABŞ təyyarələri tərəfindən bombardman edilib və nəticədə 22 nəfər həyatını itirib.

İnsident beynəlxalq ictimaiyyətin hiddətinə səbəb olub. BMT-nin baş katibi Pan Gi Mun bombardmanın tam və obyektiv şəkildə təhqiq olunmasına çağırıb.

### Terrorçuların hücumu nəticəsində Türkiyədə 9 nəfər yaralanıb



Kürd Fəhlə Partiyasının (PKK) silahlıları Van vilayətinin Başkale rayonunda yerləşən hərbi hissəyə hücum ediblər.

Türkiyə KİV-lərinin məlumatına görə, PKK terrorçularının silahlı basqını nəticəsində 9 nəfər yaralanıb. Onlardan biri mülki şəxsdir.

Bundan başqa, Batmanda 4 terrorçunun yaralı halda ələ keçirildiyi, Şirnakda isə 3 terrorçunun hökumət qüvvələrinə təslim olduğu bildirilir.

### Zimbabvedə brakonyerlər filləri sianidlə zəhərləməyə başlayıblar



Zimbabvedə sianid vasitəsi ilə zəhərlənib öldürülmüş 14 filin cəsədi tapılıb. Onların çoxu "Hwange" Milli Parkında aşkarlanıb. Öldürülən fillərin hamısının dişləri kəsilərək götürülüb.

Milli Park 53 min filin yaşayış məskənidir və burada brakonyerlik halları tez-tez müşahidə olunur. İndi isə "Hwange" parkının işçiləri Zimbabvedə dağ-mədən sənayesində geniş istifadə edilən sianid duzları vasitəsi ilə zəhərlənmə hallarının getdikcə artdığını deyirlər. Məlum olub ki, zəhər filləri çox cəlb edən portağal və qarğıdalıya qatılır.

Zimbabvenin vəhşi təbiət və parklar idarəsinin mətbuat katibi Kerolayn Vaşayya-Moyo uzun illər boyu brakonyerlərin tüfəng və digər silahlardan istifadə etdiklərini deyib. Fillərin sianidlə ilk zəhərlənmə faktı isə 2013-cü ildə qeydə alınıb.

### Çində 65 ilin ən dağıdıcı qasırğası 5,5 milyon insana zərər vurub



Çində dağıdıcı "Muçjiqe" tayfunu qurbanlarının sayı artıb. Yerli KİV-lərin məlumatına görə, təbii fəlakət nəticəsində azı 19 nəfər həlak olub, bir neçə nəfər itkin düşüb. Ümumilikdə isə "Muçjiqe" tayfunu nəticəsində 5 milyondan çox insanın zərər çəkdiyi bildirilir.

Qasırğa Çinin ərazisinə bazar günü daxil olub. Təbii fəlakətdən ən çox ölkənin cənub regionları - Quandun əyaləti, turistlər arasında populyar olan Haynan adası və Quansi muxtariyyəti zərər görüb. Həmin ərazilərdə evlər uçub, ağaclar kökündən qopub, yollar dağılıb və yüz minlərlə hektar kənd təsərrüfatı sahəsi yararsız hala düşüb.

Yerli mətbuat "Muçjiqe"nin 1949-cu ildən bəri Çində baş verən ən dağıdıcı qasırğa olduğunu yazır.

### Adolf Hitlerin aqibəti ilə bağlı yeni məxfi sənədlər üzə çıxıb



Son illərdə faşist Almaniyasının kansleri Adolf Hitlerin aqibəti barədə müxtəlif şayiələr dolaşmaqdadır. Bununla bağlı yeni məxfi sənədlər üzə çıxıb.

Bir sıra tarixçilər iddia edir ki, Hitler və xanımı Yeva Braun 1945-ci ilin aprelin 30-da Reyxstaqdakı bunkerdə intihar ediblər. Lakin bunun əksini iddia edənlər də var. Onlar Amerika Birləşmiş Ştatlarında yeni çəkilən "Hitlerin qaçışı" adlı 8 hissəli sənədli filmi dəlil gətirərək, Hitlerin müharibə dövründə ölmədiyini israr edirlər.

Məlumata görə, "Hitlerin qaçışı" adlı sənədli filmin müəllifi ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin sabiq agenti Robert Baerdir.

Federal Tədqiqat Bürosunda mövcud olan onlarla məxfi sənəd əsasında lentə alınan filmin yaradıcı heyəti Hitlerin Cənubi Amerika ölkələrinə - Argentina və Braziliyaya qaçmasına dair izlər tapıb. Tədqiqatçılar sübut edir ki, Hitlerin bunkerində Tempelhof hava limanına və eyniadlı dəmiryol stansiyasına çıxmaq üçün tunel olub və o, 1945-ci ildə bu tunel vasitəsilə qaçmaq fürsətindən yararlanıb.

**AZƏRTAC-ın materialları əsasında**

*General Səməd bəy Mehmandarov - 160*

# Andına sadiq sərkərdə

Xalqımızın sərkərdəlik və qəhrəmanlıq tarixi zəngindir. Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Cavanşir, Babək, Uzun Həsən, Şah İsmayıl Xətai kimi sərkərdələrimiz Azərbaycanın müstəqilliyi və azadlığı naminə aparılan mübarizələrdə tarixi şücaətlər göstərmişlər. 1828-ci il Şimali Azərbaycanın çar Rusiyası tərkibinə daxil edildiyi ildən 1917-ci il fevral-burjua inqilabına qədər, yəni 90 il ərzində xalqımızın övladları hərbi xidmətdən məhrum edilmiş, əvəzində ağır vergilər ödəməyə məcbur edilmişlər. Yalnız xalqın ağa, bəy nəslinin və zadəgan, ziyalı zümrəsinin içərisindən ayrı-ayrı şəxslər öz övladlarını Rusiyanın hərbi məktəblərinə göndərə bilmişdi. Belə qadağalara baxmayaraq, çarizm dövründə çoxlu sayda azərbaycanlı zabit yetişmişdi ki, onlar da yüksək sərkərdəlik nümunələri göstərmişlər. Vitse-admiral İbrahim bəy Allahverdi oğlu Aslanbəyov, tam artilleriya generalları Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, süvari generalı Hüseyn xan Naxçıvanski, generallardan Teymur bəy Novruzov, Əmir Kazım Qacar, Əmənulla xan Qacar, Həbib bəy Səlimov, İbrahim ağa Usubov kimi görkəmli sərkərdələrin adları qəhrəmanlıq tariximizin səhifələrinə qızıl hərflərlə həkk olunub. Onlarla görkəmli sərkərdələr nəslinin - Bakıxanovlar, Şıxlinskilər, Vəkilovlar, Cavanşirlər, Kəngərlilər, Cavadxanlar, Yadigarovlar, Qacarlar və digər nəsillərin nümayəndələri Azərbaycanımızı dünyada tanıtmışlar. Onların Krım cəbhələrində (1853-1856), Rus-yapon (1904-1905) və Birinci Dünya müharibələrində (1914-1918) yüksək hərbi bacarıqları, döyüş taktikaları bu gün də dünya hərb elminin nəzəriyyəsi kimi öyrənilir və təcrübədə tətbiq edilir.

Sərkərdələr sırasında Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qurucusu və hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun adı xüsusilə çəkilir. Ordu quruculuğu prosesinin bütünlüklə milli zəmin üzərində həyata keçirilməsi, hərbi potensialın məharətlə istiqamətləndirilməsi və konkret tarixi şəraitdə ölkənin ərazi bütövlüyünün, hərbi təhlükəsizliyinin layiqincə təşkil edilməsində əvəzsiz xidmətləri olmuş tam artilleriya generalı Səməd bəy Mehmandarovun anadan olmasının 160 illik yubileyinin keçirilməsi haqqında ölkə Prezidenti İlham Əliyev 29 sentyabr 2015-ci il tarixində sərəncam imzalayıb. Sərəncamda Azərbaycan Respublikası Müdafiə Nazirliyinə Təhsil, Mədəniyyət və Turizm nazirlikləri ilə birlikdə görkəmli sərkərdənin 160 illik yubileyinin keçirilməsinə dair tədbirlər planını hazırlamaq tapşırığı da öz əksini tapıb.



Görkəmli generalın döyüş yolu və fəaliyyətini üç mərhələyə bölmək olar: Çarizm, Azərbaycan Xalq Cümhuriyyəti və Sovet dövrləri.

Səməd bəy Mehmandarov 1856-cı il oktyabrın 16-da Lənkəran şəhərində anadan olub. Əslən Qarabağdan - Şuşadan olan S.Mehmandarov atasının dövlət işindəki xidməti ilə əlaqədar olaraq uzun müddət Lənkəranda yaşayıb. İlk təhsilini Bakıdakı Edadiyə məktəbində alan Səməd hərbi peşəyə böyük maraq göstərib. Atası Sadıq bəyin təkidlərinə baxmayaraq o, məqsədindən dönmür və hərbi peşəyə yiyələnəcəyinə qəti qərar verir. 1873-cü ildə Peterburqdakı 2-ci Konstantin hərbi məktəbinə daxil olur. 2 il müddətinə həmin məktəbi başa vuran azərbaycanlı gənc ilkin zabit rütbəsini - praporşik rütbəsini alaraq, 1-ci Türküstan topçu briqadasında xidmət keçir. 1894-cü ildə Varşava hərbi dairəsinə göndərilən S.Mehmandarov 4 il sonra Əlahiddə Zabaykalye hərbi divizionuna dəyişdirilir. Həmin divizionun tərkibində Çində baş vermiş antiimperialist üsyanın qarşısının alınmasında iştirak etsə də, silahsız, əliyalın xalq kütlələrinə qarşı atəş açmağın zabit şərəfinə ləkə gətirən bir hal olduğunu söyləyərək çar generallarının əmrlərini yerinə yetirməkdən boyun qaçırır.

Görkəmli hərbi xadim Səməd bəy Mehmandarov xalqın maariflənməsini son dərəcə önəmli məsələ sayırdı və Vətəndən çox-çox uzaqlarda olmasına baxmayaraq, o dövrün mətbu orqanlarında bu mövzuda bir neçə məqalə çap etdirmişdi. Onun ictimai narahatlığı, dini cəhaləti, nadanlığı əks etdirən "Müsəlmanların geriliyinin səbəbləri", "Nə etməli?", "İbtidai qiraət dərsləri", "Müsəlman mühafizəkarlığı əleyhinə", "Şiələrin dini şəbihləri", "Müsəlmanların özlərinə işgəncə verməələri haqqında" və s. yazıları Tiflisdə nəşr olunan "Novoye obozreniye" qəzetinin səhifələrində dərc olunmuşdu.

Rus-yapon müharibəsi meydanlarında yüksək hərbi peşəkarlığı ilə fərqlənən polkovnik S.Mehmandarov 7-ci Şərqi Sibir artilleriya divizionunun komandiri, eyni zamanda, Port-Arturun Şərq cəbhəsinin artilleriya rəisi təyin edilmişdi. Görkəmli sərkərdə bu müharibədə şücaətlərinə görə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif edilərək general-mayor rütbəsinə layiq görülür. Onun təşkilatçılıq qabiliyyəti və peşəkarlığı təkcə xidmət yoldaşlarını deyil, yapon hərbçilərini də təəccübləndirməyə bilməzdi. S.Mehmandarov zabit prinsipiallığına və şərəfinə sədaqəti ilə də önə çəkilərək müasirlərinin xatirələrində əbədiləşir.

Xalqımızın sərkərdə oğlu Birinci Dünya müharibəsi cəbhələrində də imperialist qüvvələrə qarşı döyüş meydanlarında orduya bacarıqla başçılıq edir və keçirilən bir neçə əməliyyatda uğur qazanaraq şöhrəti bütün ölkəyə yayılır.

S.Mehmandarov 7-ci Şərqi Sibir artilleriya briqadasının komandanı təyin edilir. Çox keçmir ki, ona daha məsul vəzifə - 3-cü Sibir ordusunun korpusunda artilleriya rəisi vəzifəsi həvalə olunur. 1908-ci il iyulun 13-də görkəmli hərbi xadim S.Mehmandarov general-leytenant rütbəsinə layiq görülür. 1910-cu ilin mayında xalqımızın qəhrəman oğlunu doğma Qafqaz cəbhəsinə - Tiflisdə yerləşən 1-ci Qafqaz ordusunun korpusuna artilleriya rəisi vəzifəsinə göndərirlər. Əvvəlcə birinci piyada diviziyasına, sonra isə 2-ci Qafqaz ordusuna komandanlıq edir. Təyin olunduğu bütün vəzifələrdə ona həvalə edilən ən məsuliyyətli döyüş tapşırıqlarını uğurla yerinə yetirir. Əməliyyatların keçirilməsi zamanı nümayiş etdirdiyi yüksək komandirlik məharəti, təşkilatçılıq qabiliyyəti çar ordusunun komandanlığı tərəfindən lazımınca qiymətləndirilir. Hərbi akademiya təhsili almamasına baxmayaraq, 1915-ci il martın 22-də ona tam artilleriya generalı fəxri adı verilir.

Böyük Oktyabr inqilabından sonra formalaşmaqda olan bolşevik ordusunda anarxiyanın, özbaşınalıqların artmasını görən tam artilleriya generalı S.Mehmandarov istefa verir. 1918-ci ilin payızında Vətənə dönən təcrübəli general Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin dəvətini qəbul edərək, dövlətin hərbi quruculuq məsələlərində və milli ordunun formalaşmasında var qüvvəsini əsirgəmir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**



## "Bayrağımız - milli qürurumuzdur"

### Silahlı Qüvvələrin şəxsi heyəti arasında yazı müsabiqəsi

Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi hazırlığı həmişə diqqət mərkəzindədir. Bu istiqamətdə müxtəlif mövzularda geniş miqyaslı tədbirlər həyata keçirilir ki, bunlar da hərbçilərin istər dünyaduyumunun formalaşmasında, istərsə də mənəvi aləminin zənginləşməsində müstəsna rol oynayır.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Silahlı Qüvvələrin şəxsi heyəti arasında "Bayrağımız - milli qürurumuzdur" mövzusunda yazı müsabiqəsi elan etməsi də bunun təzahürüdür. Belə bir müsabiqənin keçirilməsi Silahlı Qüvvələr və qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrdə mənəvi-psixoloji hazırlığın daha intensiv təşkilinin təmin edilməsində vasitə olacaqdır.

Müsabiqəyə təqdim edilən yazılara Şəxsi Heyət Baş İdarəsi rəisinin əmri ilə müəyyənləşdirilmiş komissiya tərəfindən baxılacaq, daha əhatəli, məzmunlu, bədii yazılar seçilərək qaliblər müəyyənləşəcək.

Yazı müsabiqəsi noyabr ayının 9-da yekunlaşacaq.

Müsabiqədə fərqlənənlər həm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinə uyğun olaraq həvəsləndiriləcək, fərqlənən yazılar "Azərbaycan Ordusu" qəzetində dərc ediləcək, həm də qaliblər Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılacaq:

I yer - 200 manat; II yer - 150 manat; III yer - 100 manat.

**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Qarabağ şikəstəsi



Quzanlının builki payızı qəribə görkəmdədi. Ağacların bir budağında yay nəfəs dərir, bir budağına payız qonub. Bir yarpağının yaşıllığı göz doydurur, bir yarpağının sarılığı könül küsdürür. Sarı yarpaqlara məhəl qoyan yoxdu. Ötüb-keçənlər gözucu da olsa yaşıllığını itirməyən yarpaqlara baxır. Könlündən nələr keçdiyini kimsə bilməz. 8-10 yaşlı bir uşaq budağından üzülmüş yarpağı götürüb baxır. Əllərinin xınalanacağından çəkinir elə bil. Yarpağı ehmalca ağacın budağına qoyub Ağdam Olimpiya Kompleksinə tələsir. Xalq artisti, istedadlı xanəndə Mənsum İbrahimovun 55 illik yubileyinə. Bir azdan möhtəşəm tədbirin cazibəsinə başqaları kimi o da düşəcək. Muğamlarımızın fəlsəfəsi bu yaşında onun da ruhuna hopacaq.

Tədbirə gələnlərin baxışlarında uçunan, çırpınan kövrəkliyi, kövrəklik içindən boy göstərən qüruru duymaq çətin deyil. Neçə illər əvvəl Ağdamda keçirilən "Xarı bülbül" festivalını xatırlayıram. Onda Ağdam işğal olunmamışdı. Onda ermənilər Ağdam adı gələndə "sarısını udurdu". Onda Mənsum İbrahimov da Qədir Rüstəmovun "Sona bülbüllər"indən riqqətə gəlmişdi.

...Muğamımızın əsgəri kimi tanınan, sevilən Mənsum İbrahimov əsgərlər arasındadı. Əsgərlərə səsiylə, sənətiylə hesabat verir elə bil. Bu, özünün seçimidi, özünün istəyidi. Bu gün Quzanlıya, düşmənlə üzbəüz səngərlərdə torpaqlarımızı qoruyan, Ali Baş Komandanın əmriylə düşmənləri bu həndəvərlərdən birdəfəlik süpürüb atacaq əsgərlərin yanına mənəvi borcödəmə kimi gəlib. Bu görüşün bircə yozumu var: siz torpağı qoruyursunuz, biz o torpaqlara muğamlarımızın, xalq havalarımızın möcüzəsiylə təsəlli veririk. Gec edər, güc edər, əsgər qardaşım...

Səslə qətiyyətin, xanəndəylə əsgərin bu birliyinin, bu vəhdətin, bu təmasın mahiyyəti milli-mənəvi dəyərlərimizin təsdiqidi.

Bayaqkı uşaq əsgərlərin sırasında oturmaq istəyir. Bu, düşüncələrimin qırışığını açır...

Məqam tapıb həmin uşaqdan soruşuram:

- Böyüyəndə kim olacaqsan, balaca?

Gözlərini qırpmadan tərs-tərs üzümə baxır:

- Əsgər olacam! - deyir.

Tədbir bir azdan başlayacaq...

Yubiley tədbirinin məhz Ağdamda, əsgərlərin əhatəsində başlaması könül məsələsidi: dərdə düşənləri dərddən alacaq oğulların baxışlarında gördüklərim Ağdamın sabahlarına qədərsiz sayğıdı, işğaldan azad ediləcəyinə dönməz inamdı. Oxunacaq mahnıları, muğamları bu bəşəri inama ehtiram bilirəm...

Ağdam rayon İcra Hakimiyyətinin başçısı Raquf Məmmədov yubilyarı təbrik edir, belə tədbirlərin yaxın gələcəkdə Ağdam şəhərində "Xarı bülbül" festivalı formatında keçiriləcəyinə inamlı olduğunu bildirir...

Mənsum İbrahimov oxuyur. Səsində çılğınlıqla kövrəklik, narahatlıqla inam bir-birinə söykəklidi. Ağdamın, ağdamlıların dərdini səsə-sözə çevirib oxuyur. Əsgərlərin yumruqları düyünlənir. Bir ayrı biçim hiddətdi...

Bir ananın göz yaşları yanaqlarını yandırıb külə döndərməkdədi. Bu göz yaşı deyil, göz yaşına dönmüş ocaq qəhəridi, torpaq qəhəridi. Bu qəhər Ağdamsızlığın qəhəridi. Əsgərlərin yumruqları ruhumuza qənim kəsilən qəhərin ömrünü gödəltmək üçün düyünlənib, şübhəsiz. Bayaqkı uşaq bir qədər çəkingən yerişlə əsgərlərə yaxınlaşır. Kapitan rütbəli zabit ona yanında yer eləyir. Uşaq nəsə demək istəyir, nəsə soruşmaq istəyir. Bu sorğunun Ağdama ad olacağını duymaq, hiss eləmək çətin deyil. O "nəsə"ni yaşı 80-ni haqlayan bir ağsaqqal da gümanlayır (bir azdan biləcəm ki, Zal Bayramovdu, işğala kimi Xaçın - Qərvənddə yaşayıb), "Az qalıb, ay oğul. Qayıdacağıq. Ruhumuzun ocağına qayıdacağıq..." - pıçıldayır...



Hamı duyğulanıb. Bircə kəlmə bəs eləyər ki, uşaqlı-böyüklü hamı səngərlərə yürüş eləsin. Bu hökmü Mənsum İbrahimovun səsi verərdi. Səlahiyyəti yoxdu. Sülh danışıqları baş tutmasa, o hökmü Ali Baş Komandan verəcək...

...Ağdam Olimpiya Kompleksinə sığışmayan səs ön səngərlərə də çatır, səngərdən o tərəfə də. Bu, milli ruhun qüdrətidi, milli ruhdan rişələnmiş səsin qüdrətidi...

Mənsum İbrahimovun yubileyində xalq artisti Arif Babayev oxuyur - duyğulanıram...

Xalq artisti Nəzakət Teymurova oxuyur - elə bilirəm Şuşada, Cıdır düzündəyik...

Xaiq artisti Aygün Bayramova oxuyur - Məhin Banunun, Burla Xatunun, Tomrisin, Natəvanın,.. səs-söz görkəmində təsəlli-oxumasıdı elə bil...

Zamanında özü də döyüşçü olmuş əməkdar artist Cabir Abdullayev oxuyur. Səsində çırpınan narahatlığın bir adı var - Ağdam həsrəti...

Əməkdar artist Təyyar Bayramov oxuyur...

Əməkdar artist Firuz Səxavət oxuyur...

Əməkdar artist Sevinc Sarıyeva oxuyur...

...Sonda xanəndələrin ifasında "Qarabağ şikəstəsi" haray çəkir. Hər ürək bu harayın bir zərrəsinə dönür. Bayaqkı uşağın dirsəyi dizindədi, əlləri çənəsində...

Hiss elədim ki, Faxralı Quzanlıdan uzaq deyil; eyni ruhun daşıyıcıları arasında məsafə olmur...

...Bayaqdan bəri "Heyratı"dan heyrətlənən, "Rast"dan coşub-çağlayan, "Segah"dan kövrələn əsgərlərimiz də yubileyin niyə məhz Ağdamda - Quzanlıda başladığını bir mətləbə yozur: indi səslə gördüyümüz dönüşü qaçqınların ocaqlarına möhtəşəm dönüşü tamamlayacaq!..

Xalq artisti Mənsum İbrahimovun 55 illik yubileyi özlüyündə bir şikəstəydi - düşünürəm. Torpaq şikəstəsi, Ağdam şikəstəsi...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan nümayəndəsi beynəlxalq şahmat turnirinin liderlər qrupundadır

Men adasının paytaxtı Duqlas şəhərində üç qrupdan ibarət "PokerStars Isle of Man International 2015" beynəlxalq şahmat turniri start götürüb.

Ən güclü şahmatçıların "Masters" turnirində 108 şahmatçı, o cümlədən 45 qrossmeyster, reytinq xalı 700 olan 4 şahmatçı iştirak edir. Turnir iştirakçıları arasında Azərbaycanı legioner Arkadi Naydiç (2682) təmsil edir. "Masters" qrupunda dörd turdan sonra hərəyə 3,5 xal toplayan 7 qrossmeyster, o cümlədən Arkadi Naydiç liderlik edirlər.

Birinci mükafat 10 min funt sterlinqdir. Qadın şahmatçıların turnirində isə birinci mükafat 3 min funt sterlinqdir.

Men adasında turnir İsveçrə sistemi ilə 9 turda keçirilir.

## Azərbaycan güləşçisi dünya reytinqində birinci yerdə qərarlaşıb




Dünya Güləş Birliyi 2015-ci ilin sentyabrında keçirilən yarışların nəticələrinə əsasən, sərbəst güləş üzrə yeni reytinq siyahısını açıqlayıb. Bu barədə Azərbaycan Güləş Federasiyasından bildiriblər.

Sərbəst güləşçilərimizdən 10-u Dünya Güləş Birliyinin reytinq siyahısında yer alıb. Ötən ay ABŞ-ın Las-Veqas şəhərində keçirilən dünya çempionatında sərbəst güləşçilərimizin qazandığı 1 qızıl, 1 gümüş və 1 bürünc medal, eləcə də "Rio-2016" Yay Olimpiya Oyunlarına 4 lisenziya idmançılarımızın reytinq siyahısındakı mövqelərinə də təsir göstərib.

## Boksçumuz dünya çempionatına qələbə ilə başlayıb




Qətərin paytaxtı Dohada boks üzrə dünya çempionatı davam edir.

Daha bir boksçumuz dünya çempionatına qələbə ilə başlayıb. Mundialın debütantı - 49 kiloqram çəki dərəcəsində mübarizə aparan Rüfət Hüseynov mərakeşli İmad Ahyounu məğlub edib. R.Hüseynov növbəti mərhələdə özbəkistanlı Hasanbay Dusmatovla üz-üzə gələcək. Boksçularımızdan ilk olaraq rinqə çıxan Lorenzo Sotomayor (64 kq) kanadalı Artur Biyarslanova qalib gələrək səkkizdəbir final mərhələsinə vəsiqə qazanmışdı. Təmsilçimizin növbəti rəqibi əlcəzairli Abdelkader Çader olacaq.

## Futbol üzrə Azərbaycan kuboku yarışlarının püşkü atılıb



Oktyabrın 7-də futbol üzrə Azərbaycan kuboku yarışlarının 2015-2016-cı il mövsümünün püşkü atılıb. AFFA-nın binasında keçirilən tədbirdə Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev, klubların nümayəndələri iştirak ediblər. On doqquz komandanın mübarizə aparacağı turnirdə onaltıdabir və səkkizdəbir final mərhələlərinin cütlükləri müəyyənləşib.

Belə ki, oktyabrın 14-də keçiriləcək onaltıdabir final mərhələsində MOİK - "Turan Tovuz", "Şahdağ" - "Şəmkir" və "Şərurspor" - "Qaradağ Lökbatan" matçları oynanılacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici hərbi xronika

Yeni nəsildən olan hərbi Airbus A400M nəqliyyat təyyarəsi yanacaqdoldurma təyyarəsi kimi eyni vaxtda iki F-18 qırıcısını yanacaqla təmin edib. Dörd uçuş müddətində təyyarə 20-33 fut hündürlükdə 27,2 ton yanacaqla İspaniya Hərbi Hava Qüvvələrinin təyyarələrini təmin edib. Yanacaqla təminetmə ehtiyat çənlərində olan 50,8 ton əlavə yanacaq hesabına yerinə yetirilib. İlk olaraq bu təyyarə yanacaqdoldurma və nəqliyyat təyyarəsi kimi hazırlanıb və iqtisadi cəhətdən çox əlverişlidir.

* * *

Hindistanın Müdafiə Nazirliyi Yaponiyanın Shin Mayva şirkətindən 1,3 milyard dollar məbləğində 12 ədəd US-2 hidrotəyyarəsinin alınmasını planlaşdırıb. Verilən məlumata əsasən, Hindistan hərbçiləri sahil mühafizəsi üçün daha 5 ədəd amfibiya əldə edə bilər. US-2 təyyarəsi dünyada yeganə hidrotəyyarədir ki, dənizdə baş verən güclü dalğa zamanı da enə və qalxa bilər. Bu təyyarələrin alınması hər iki ölkə arasında hərbi əməkdaşlığı daha da gücləndirəcək.

* * *

ABŞ hökuməti quru qoşunlarının sayını 450 min nəfərə qədər azaldacaq. Hazırda bu bölmələrdə yarım milyondan çox adam xidmət edir. Bu haqda jurnalistlərlə görüşü zamanı nazir Con Marxyu məlumat verib. O, daha sonra bildirib ki, quru qoşunları tərəfindən M-1 Abrams tankının alınması ilə büdcə vəsaitinə olan ehtiyacı artırmaqdır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**

# Oğullar əsgər gedir



Xoş arzu, muradıyla,
Oğullar əsgər gedir.
"Cəngi" sədalarıyla,
Oğullar əsgər gedir...

Cəm olubdu igidlər,
Bir-birindən hünərvər,
Qolda güc, dizdə təpər,
Oğullar əsgər gedir...

Hər ana - üzü nurlu,
Hər bir ata - qürurlu...
Yolu açıq, uğurlu,
Oğullar əsgər gedir...

Qızlar çıxıb yol üstə,
Yığışıb dəstə-dəstə.
Haray çəkir bir səs də:
Oğullar əsgər gedir...

Əl edən ələ alqış!
Dualı dilə alqış!
Böyüdən elə alqış!
Oğullar əsgər gedir...

**Mirvari VERDİYEVA,**
**ADPU,**
**fəlsəfə doktoru**

Kapitan Xammedli İlkin Nizami oğluna 2010-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Baş leytenant Bədirov Mahir Məhəmmədəli oğluna 2007-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 806
Nüsxə 4710